<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>HİST 303,  Azərbaycan tarixi-1, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya Departamenti</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim</td><td>Ph.D Ülviyyə İbrahimova</td></tr>
<tr><td>E-mail:</td><td>ulviyya.ibrahimova @khazar.org<br>ulviya_ajdar@mail.ru</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Müəllimin təyin etdiyi vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br>1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, 2009, 872 s.<br>2. Azərbaycan tarixi üzrə qaynaqlar. Seminar və təcrübə məşğələləri üçün müntəxabat. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, Çıraq, 2007, 400 s.<br>3. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). M.Abdullayevin elmi redaktorluğu ilə. Bakı, 2025, 412 s.<br>Əlavə<br>1. Aşurbəyli S.B. Şirvanşahlar dövləti .Bakı, Avrasiya press,2006, 416 s.<br>2. Əliyeva L.A. Azərbaycan xalqının etnogenezində qıpçaqların yeri. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2015, 228 s.<br>3. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti.Bakı, 2007<br>4. Bayramlı Z.H., Şabıyev B.Ş. Azərbaycan Səfəvilər dövləti (XVI-XVII əsrlər), Bakı, Avropa, 2016, 344 s.<br>5. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi, Bakı, 2006.<br>6. Bünyadov T.Ə. Azərbaycan arxeologiyası. Bakı, 1960.263s.<br>7. Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr,1989, 336 s.<br>8. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı,”Şərq-Qərb, 2007, 312 s.<br>9. Cəbiyev.Q.C.Girdiman tarixi (IV-IX əsrlər) Bakı,Şərq-Qərb,2010, 616 s.<br>10. Əliyarlı S.Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı, Mürtəcim, 2012, 560 s.<br>11. F.Rəşiddədin .Oğuznamə.Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən , ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı.”Azərbaycan Milli Ensiklopediyası”.Nəşriyyat-Poliqrafiya Birliyi.Bakı.2003. 89 s.<br>12. Fazili A.  Atropatena (e.ə. IV-VII əsrlər). Bakı, Elm, 1992, 216 s.</td></tr>
</table>

<table>
<tr><td></td><td colspan="2">13. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı,Azpoliqraf, 2008, 448 s.<br>14. Qaşqay.S.Manna dövləti. Bakı.Azərnəşr,1993,107 s.<br>15. Mahmudov Y.M. Azərbaycan diplomatiyası, Bakı, 2000.<br>16. Mahmudov Y.M. Səyyahlar, kəşflər və Azərbaycan. Bakı, 1985.<br>17. Məmmədov T.Qafqaz Albaniyası ilk orta əsrlərdə.Bakı,Təhsil,2006. 400 s.<br>18. Məmmədova F. M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, 74 s.<br>19. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi. Bakı, Avrasiya Press, 2006, 296 s.<br>20. Piriyev V.Azərbaycan XIII-XIV əsrlərdə . Bakı: Nurlan, 2003, 458 s.<br>21. S.Nəfisi.Azərbaycan qəhrəmanı Babək Xürrəmdin-Bakı;Elm,1990-128 s.<br>22. Nəcəfli.T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Bakı,2012. 601 s.<br>23. Şərifli M.X. IX əsrin I yarısı-XI əsr Azərbaycan feodal dövlətləri. Bakı, 1978.344 s.<br>24. Şabıyev B.Ş. Uzun Həsənin xarici siyasəti (Osmanlı imperiyası ilə) Bakı, 2012.<br>25. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı,1974,320 s.<br>26. İbrahimova Ü.Ə. Azərbaycan tarixi “Mücməl-i Fəsihi”də. Bakı, 2018, Mütərcim, 256 s.</td></tr>
<tr><td>Kursun təsviri və məqsədləri</td><td colspan="2">Azərbaycanın tarixi kursu tarixi torpaqlarımızda qədim dövrlərdən başlayaraq XVIII əsrədək davam edən ictimai-siyasi proseslərin səbəb-nəticə əlaqələrinin təhlili, milli dövlətçiliyin mahiyyəti, müstəmləkəçilik və müstəqillik anlayışlarının tarixi reallıqlar üzərindən araşdırılması və tariximizdən günümüz üçün dərslərin çıxarılması kursun əsas məqsədini təşkil edir. O cümlədən, Azərbaycanda yaşayan xalqların Qafqaz türkləri ilə birgə yaratdıqları ümumi mədəniyyətin öyrənilməsi, xalqımızın formalaşması, etnogenez problemi, qonşu dövlətlərlə münasibətləri və s. tarixi proseslərin kompleks şəkildə öyrənilməsi, Azərbaycan tarixinin milli konsepsiyasına əsaslanaraq elmi anlayışların formalaşmasına nail olmaq tədris edilən fənnin əsas məqsədlərindəndir. Müstəqil düşüncə və təhlil bacarıqlarının tələbələrə aşılnması əsas pedaqoji məqsədlərdəndir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="2">Fənnin ümumi tədrisi prosesində :<br>- Azərbaycan torpaqlarının tarixi haqda tələbələrdə dəqiq məlumat və dərin təsəvvür yaranacaq.<br>- Azərbaycanın dünya və şərq tarixindəki mühüm mövqeyi obyektiv formada tələbələrə çatdırılacaq.<br>- Azərbaycan xalqının yaranmasının tarixi şəraiti və bu yaranışda əsas amillər izah ediləcək<br>- Azərbaycan tarixinin mərhələləri və bu mərhələlərə keçidlərin xüsusiyyətləri tələbələrlə birgə araşdırılacaq</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Mühazirə</td><td>X</td></tr>
<tr><td>Qrup işi</td><td>X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td>X</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td>X</td></tr>
</table>

<table>
<tr><td></td><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>30 bal</td></tr>
<tr><td>Prezentasiyalar</td><td>Semestr boyu</td><td>10 bal</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr boyu</td><td>5 bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr boyu</td><td>5 bal</td></tr>
<tr><td>Yoxlama yazı işi</td><td>Aralıq imtahanı öncəsi<br>Final imtahanı öncəsi</td><td>20 bal<br>(10+10)</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>30 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Davamiyyət :<br>Tələbələrin mümkün olduğu qədər bütün dərslərdə iştirakı zəruridir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikmələr və ya digər dərs pozuntuları :<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbə qayıb yazılır. Lakin tələbə dərsə buraxılır.<br>Prezentasiya : Mövzular sillabusun davamında tıklif edilmişdir. Seçim sərbəstdir. Mğvzular qrup işi olaraq slaydla təqdim edilməlidir. Təqdimat zamanı istifadə edilmiş ədəbiyyat mütləq göstərilməlidir. Qiymətləndirmə qrup işi olaraq aparılır.<br>Yoxlama işi : Aralıq və final imtahanları öncəsi müəllim tərəfindən keçirilir. Test və açıq suallar vasitəsi ilə aparıla bilər.<br>Dekanlığa və müəllimə öncədən məlumat verilən üzürlü səbəblərə görə yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>İmtahanlar:<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncədən elan edilir. Aralıq imtahanını əhatə edən bölmələr final imtahanına daxil edilmir. .<br>İmtahan qaydalarının pozuntuları :<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>Fənni bitirmək qaydası :<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>Tələbələrin davranış qaydaları :<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr apararaq səs-küy salmaq və mobil telefonlardan istifadə etmək olmaz.</td></tr>
<tr><td colspan="4" align="center">Cədvəl (dəyişdirilə bilər)</td></tr>
</table>

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | *16.09.25*<br><br>*16.09.25* | **Giriş.** Azərbaycan tarixi nədən bəhs edir? Azərbaycan tarixi anlayışı, kursun quruluş və dövrləşdirmə prinsipləri. Tarixi biliklər sistemində Azərbaycan tarixi fənninin iş proqramı və əsas vəzifələri. Azərbaycan tarixi üzrə qaynaqlar və onların təsnifatı.<br>**Tarixşünaslıq**. Azərbaycan tarixinin öyrənilməsindəki çətinliklər.<br>**Azərbaycanda ibtidai icma cəmiyyəti. Daş dövrü.** İnsan yaşayışının ulu çağı. Qədim daş dövrü. Azərbaycanda paleolit (qədim daş dövrü) abidələri. Azıx adamı. Quruçay mədəniyyəti. Orta paleolit. Tağlar, Daşsalahlı və Damcılı mağaraları. Qəbilə icmasının yaranışı.Mezolit və Neolit dövrü abidələri. Qobustan yaşayış yeri. Qayaüstü təsvirlər. "Neolit inqilabı". İbtidai icma cəmiyyətinin dağılması. **Tunc dövrü.** Erkən tunc dövrü. Kür-Araz mədəniyyəti. Orta tunc dövrü. Metaləritmə texnikası. Xocalı-Gədəbəy, Naxçıvan, Talış-Muğan mədəniyyətləri. | Dərslik<br><br>1. I bölüm §1-4 |
| 2 | *23.09.25*<br><br>*23.09.25* | **Azərbaycan ərazisində ilk dövlətlər.** E.ə III-II minillikdə Azərbaycan ərazisində tayfalar və ilkin tayfa birlikləri. Azərbaycanın etnosiyası xəritəsi. Urmiya gölü hövzəsində ilk dövlət qurumları. **Aratta, Lullubi, Kuti.**<br>**Manna dövləti**. Manna dövlətinin yaranmasının ilkin şərtləri. Assuriya və Urartu ilə münasibətlər. Kimmer, skif, iskit-sak tayfalarının Azərbaycana yürüşləri. Manna-iskit ittifaqı. Manna dövlətinin süqutu. Manna Midiyanın və Əhəməni imperatotluğunun tərkibində. Manna dövlətinin quruluşu. İqtisadi həyat. Mədəniyyət. | Dərslik<br>1. II bölüm , §1-2<br><br>1. III bölüm , § 1- 4 |
| 3 | *30.09.25*<br><br>*30.09.25* | **Atropatena və Albaniya dövlətləri.** Atropatena dövlətinin yaranması. Atropatilər sülaləsi. Selevki, Parfiya və Romanın Atropatena uğrunda mübarizəsi. Sosial-iqtisadi vəziyyət. Din. "**Avesta".** Mədəniyyət.<br>**Qafqaz Albaniyası (e.ə IV-II yüzillikdə).** Əhalisi və ərazisi. Antik müəlliflər albanlar haqqında. Maddi-mədəniyyət abidələri.<br>**Alban dövlətinin yaranması**. Parfiya və Romanın Albaniya uğrunda mübarizəsi. Albaniyada iqtisadı həyatı. Şəhərlər və ticarət. Albanların dini təsəvvürləri. | Dərslik<br>**1.**IV bölüm. § 1,2<br><br>**1.**IV bölüm, § 3-4 |

| | | | |
|---|---|---|---|
| 4 | *07.10.25*<br><br><br><br><br><br><br>*07.10.25* | **Atropatena və Albaniya (III-VII yüzilliklər)**. Azərbaycan erkən orta çağda. Yeni ictimai münasibətlərin meydana gəlməsi və inkişafı. Əsas xüsusiyyətləri. Sasani dövləti və Azərbaycan. Sasanilərin Atropatenanı istila etməsi. Albaniyanın Sasanilərdən asılı vəziyyətə düşməsi. Alban hökmdarları və onların Sasanilərlə münasibətləri. V əsrdə Sasanilərə qarşı üsyanlar. Aluen (Aquen) kilsə məclisi.<br>**Girdman knyazlığı.** Cavanşirin daxili və xarici siyasəti. Bizans-Girdman və Xəzər-Girdman münasibətləri. | Dərslik<br>**1.** V bölüm, § 1-2<br><br><br><br><br><br>1.VI bölüm , § 1 |
| 5 | *14.10.25*<br><br><br><br><br><br><br>*14.10.25* | **Azərbaycan Ərəb xilafətinin tərkibində**.<br>Ərəb xilafətinin meydana gəlməsi və işğalçılıq siyasətinin başlanması. Ərəb xilafətinin Azərbaycanı tabe etməsi. Alban sülaləsinin hakimiyyətinə son qoyulması. Ərəb ağalığı. İnzibati idarə sistemi. İqtisadi siyasət. Köçürmə. İslamın yayılması. Xilafətə qarşı mübarizə. Xürrəmilərin təlimi, tarixi kökləri, hərəkətverici qüvvələri, ideologiyası. Babək.<br><br>**Azərbaycan xalqının formalaşması** prosesi: əsas mərhələləri və başa çatması. | Dərslik<br>**1.**VI bölüm, §2<br><br><br>**1.**VI bölüm, §3<br><br><br><br><br>**1.**VII bölüm, §1- 4 |
| 6 | *21.10.25*<br><br><br><br>*21.10.25* | **IX yüzilliyin ikinci yarısı-XI yüzilliyin birinci yarısında Azərbaycan feodal dövlətləri.**<br>Şirvanşahlar dövləti. Saci və Salari dövlətləri, Rəvvadi və Şəddadi dövlətləri.<br><br>**Azərbaycan Səlcuq imperiyasının tərkibində.** Azərbaycanda Oğuz türklərinin yayılması. Oğuznamələr Oğuz türklərinin tarixi qaynaqları kimi. | Dərslik<br>**1.**VIII bölüm, §1<br><br><br><br>**1.**VIII bölüm, §2 |
| 7 | **28.10.25**<br><br><br><br><br>*28.10.25* | **Azərbaycan Atabəyləri dövlətinin yaranması, yüksəlişi və tənəzzülü**. Azərbaycan Atabəylərinin daxili və xarici siyasətinin əsas istiqamətləri.<br>**Şirvanşahlar dövləti XII-XIII əsrin əvvələrində**. Kəsranilər sülaləsi hakimiyyət başında.<br>**XI-XIII əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi münasibətlər**. Azərbaycan intibah mədəniyyəti. Maarif, elm, ədəbiyyat, memarlıq, dekorativ və tətbiqi sənət. | Dərslik<br><br>**1.**VIII bölüm, § 3<br><br><br>1. VIII bölüm, § 4 |

| | | | |
|---|---|---|---|
| | | | |
| **8** | ***04.11.25***<br><br>***04.11.25*** | **Azərbaycan XIII-XIV əsrlərdə. Xarəzmşah Cəlaləddinin Azərbaycana hücumu**. Azərbaycana monqol-tatar yürüşləri və onların nəticələri.<br>**Azərbaycan Elxanilər (Hülakular) dövlətinin tərkibində**.<br>Elxanilər dövlətinin tənəzzülü və Çobani feodallarının özbaşınalığı. Azərbaycan Cəlairilər dövlətinin tərkibində. | Dərslik<br>1. IX bölüm, §1-3<br><br>1. IX bölüm, §4-5 |
| | | **Aralıq İmtahanı** | |
| **9** | ***11.11.25***<br><br>***11.11.25*** | **Azərbaycan XIV əsrin sonu - XV əsrin əvvəllərində.** Azərbaycanda Hürufilik dini cərəyanı. Fəzlüllah Nəimi və İmadəddin Nəsimi yaradıcılığı. Şirvanşahlar dövləti Dərbəndilər sülələsinin dövründə. Şirvanşah I İbrahimin siyasəti.<br><br>**Toxtamış xan və Əmir Teymurun Azərbaycana yürüşləri.**<br>. | Dərslik<br>**1.** X bölüm, § 1<br><br>**1.** X bölüm, § 1, § 3 |
| **10** | ***18.11.25***<br><br>***18.11.25*** | **Azərbaycan Türkman dövlətləri (XIV yüzilliyin sonu – XV yüzillik).** Azərbaycanda **Qaraqoyunlu (Baharlı)** dövlətinin yaranması. Qaraqoyunluların Teymurilərlə, Ağqoyunlularla və Osmanlılarla qarşılıqlı münasibətləri.<br><br>**Ağqoyunlu dövlət**inin **(Bayandurlu )** Qaraqoyunlunu əvəz etməsi. Ağqoyunlu dövlətinin xarici siyasəti.<br>XIII- XV əsr Azərbaycan mədəniyyəti. | **1.** X bölüm, § 3<br><br>1. X bölüm, § 4<br><br>1.XI bölüm, § 1-4 |

| | | | |
|---|---|---|---|
| **11** | *25.11.25*<br><br><br><br><br>*25.11.25* | **Azərbaycan XVI yüzilliklərdə. Səfəvilər (Qızılbaş) dövlətinin yaranması.**<br>XV yüzilliyin sonu-XVI yüzilliyin əvvəllərində Azərbaycanın vəziyyəti. Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsində sosial-siyasi bidətçiliyin yeri Qızılbaş təlimi.<br>Səfəvilərin Şirvana yürüşü. Bakının tutulması. Ağqoyunlu (Bayandurlu) dövləti ilə müharibə. Ağqoyunlu dövlətinin süqutu. Azərbaycan Səfəvilər dövlətinin yaranması.<br>I Şah İsmayılın daxili və xarici siyasəti. Dövlətin ərazisinin genişlənməsi. Osmanlı, Şeybanilər və Avropa dövlətləri ilə münasibətləri. Şah İsmayil Xətainin Azərbaycan tarixində rolu. | Dərslik<br><br>**1.** XII bölüm, § 1<br><br><br><br>1. XII bölüm, § 2 |
| **12** | *02.12.25*<br><br><br><br><br><br>*02.12.25* | **Azərbaycan Səfəvi dövləti XVI əsrin 30-cu illəri-XVI əsrin sonu.** I Şah Təhmasibin mərkəzləşdirmə siyasəti. Şirvanın və Şəkinin Səfəvilərə tabe edilməsi.<br>Səfəvi-Osmanlı müharibələrinin davam etdirilməsi; bu müharibələrin Azərbaycana zərbəsi. Azərbaycan torpaqalarının itirilməsi.<br><br>**Azərbaycan XVI yüzilliyin sonu – XVII yüzillikdə.**<br>Səfəvilər dövlətinin zəifləməsi və onun səbəbləri.<br>I Şah Abbasın hakimiyyətə gəlməsi və onun islahatları. Səfəvi dövlətinin yenidən güclənməsi.<br>XVII yüzilliyin birinci yarısında Səfəvi-Osmanlı müharibələri və Azərbaycan. | Dərslik<br><br>1.XII bölüm, § 3-4<br><br><br><br><br>1.XII bölüm, § 3 |

| | | | |
|---|---|---|---|
| **13** | ***09.12.25***<br><br>***09.12.25*** | **Səfəvi dövlətində dövlət quruluşu, torpaq və vergi siyasəti. Tiyul torpaq sahibliyi. Ordu.**<br><br>**XVI-XVII yüzilliklərdə Azərbaycanın sosial-iqtisadi həyatı**. Kənd təsərrüfatı. Şəhərlər. Sənətkarlıq. Ticarət. Pul dövriyyəsi. Mədəniyyət. Ədəbiyyat. Dastan ədəbiyyatı. Aşıq poeziyası. Elm. Tarixşünaslıq.İncəsənət,memarlıq. | Dərslik<br><br>**1.** XII bölüm § 4<br><br>1.XIII bölüm, §1-3 |
| **14** | ***16.12.25***<br><br>***16.12.25*** | **Azərbaycan XVIII yüzilliyin birinci yarısında.**<br>Səfəvi dövlətinin tənəzzülü. Azərbaycanda xalq azadlıq hərəkatının güclənməsi. Şirvan üsyanı. Əfqan qəbilələrinin üsyanları.<br>Rusiyanın Şərq siyasəti. I Pyotrun işğalçılıq planları. Onun Xəzəryanı bölgələrə basqını və işğalı. 1723-cü il Peterburq müqaviləsi.<br>1724-cü il İstambul müqaviləsi.Rusiyanın Xəzərsahili vilayətlərdə möhkəmlənməsi. Xəzəryanı vilayətlər istisna olmaqla Azərbaycan torpaqları Osmanlı hakimiyyəti altında. | Dərslik<br><br>1.XIV bölüm §1,2<br><br>1. XIV bölüm § 3,4 |
| **15** | ***23.12.25***<br><br>***23.12.25*** | **XVIII yüzilliyin 30-40-ci illərində Azərbaycanda vəziyyət.** İtirilmiş Azərbaycan torpaqlarının geri qaytarılması uğrunda mübarizə. Kirmanşah, Rəşt, Gəncə müqavilələri.<br><br>Səfəvi dövlətinin süqutu və Nadir xanın şah elanedilməsi. Azərbaycan Nadir şah Əfşarın hökmranlığı dövründə. Nadir şaha qarşı üsyanlar. | Dərslik<br><br>1.XIV bölüm §4<br><br>1.XIV bölüm §5 |
| | | **Final İmtahanı** | |

**Prezentasiya mövzuları:**

1. Qafqaz Albaniyasının mədəni irsi.
2. Azərbaycan Atabəyləri.
3. Azərbaycan incəsənəti İntibah dövründə.
4. Təbriz- Azərbaycan dövlətlərinin paytaxtı kimi
5. Şirvanşahlar saray kompleksi haqqda muzey hesabatı.

6.Səfəvilər dövlətinin Baharlı və Bayandurlu dövlətləri ilə müqayisəli təhlili
6. Azərbaycan tarixində Nadir şah Əfşarın rolu və yeri.
7. Qarabağ xanlığının tarixi “Qarabağnamə”lərdə.
8. Azərbaycan tarixi muzeyi haqqda hesabat.
9. Türkmənçay müqaviləsinin Azərbaycan tarixində rolu və yeri.
10. XIX əsr Azərbaycan maarifçiləri: A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi
11. XX əsrdə Azərbaycan türklərinə qarşı törədilmiş soyqırımlar.
12. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyümüz uğrunda mübarizəsi.
13. M.Ə.Rəsulzadə və N.Nərimanov- siyasi görüşləri.
14. Sovet hakimiyyətinin milli siyasəti və Azərbaycan.
15. Azərbaycanın tarixi torpaqlarına erməni iddiaları və Azərbaycan tarixinə onun təsiri.
16. Birinci Qarabağ savaşı və onun nəticələri.
17. XX əsrin 80-90- cı illərində Azərbaycanda Milli azadlıq hərəkatının xüsusiyyətləri və tarixi nəticələri.
18. 44 günlük Vətən müharibəsinin səbəbi və xüsusiyyətləri.